# Xalqın qəlbində yaşayan lider



**Belə bir düşüncə mövcuddur ki, siyasəti seçilmiş dahi şəxsiyyəti müəyyənləşdirir. Sözsüz ki, belə olan halda siyasətin dirçəlişi də böyük ölçüdə bizə məlum olmayan böyük şəxsiyyətlərin meydana çıxması qanunlarından asılıdır. Yəni fərd siyasətin yaradıcısı olmaqla onun əsas subyekti qismində çıxış edir. Siyasi proseslər, vəziyyət və ən əsası da kompleks vəziyyətlərdə siyasət özü də öz növbəsində şəxsiyyət yaradırsa, deməli, fərd siyasətin sadəcə subyekti deyil, həm də obyektidir.**

Sivilizasiyanın inkişafı prosesində fərd getdikcə cəmiyyətdə necə fərqlənirsə, mürəkkəb siyasi proseslər də şəxsiyyət yaratmağı məhz belə situasiyalarda bacarır. Dünyanın siyasi mənzərəsini müəyyənləşdirən şəxsiyyətləri də tarixin özü yetişdirir. Tarixə baxdığımız zaman isə görürük ki, o, stabil deyil, ətalət kimi məfhumlardan uzaq, olduqca çevik bir şəkildə bəşəriyyəti inkişaf burulğanına sürükləyir. Bu zaman maşınının ən gur və sürətli çağında tarix elə insanlar yetişdirir ki, məhz onlar da elə zamanın özünə meydan oxumağı bacarırlar. Azərbaycan tarixində bu mərhələnin başlanğıcı Heydər Əliyevin adı ilə bağlıdır. Bu mərhələnin sonu isə yoxdur, o baxımdan yoxdur ki, Heydər Əliyev ideyaları və idealları gənc nəslin qanına dərindən hopub. Məhz gənclik bu idealları və ideyaları özü ilə gələcəyə daşıyacaq.

Azərbaycanın dövlətçilik tarixi zəngindir, qədimdir. Tarix boyu bu zənginliyin və qədimliyin yaradıcısı, yayıcısı, hərəkətverici qüvvəsi olan görkəmli şəxsiyyətlər nəinki Azərbaycanın, bütün regionun taleyinə dərindən təsir göstərməyi bacarıblar. Regionumuzu və belə bir regionda ölkəmizi xüsusilə fərqləndirən müxtəlif indikatorlar mövcuddur. Din, multikultural dəyərlər, mədəniyyətlərin birləşən nöqtəsi qədər, siyasi ambisiyaların kəsişdiyi, parçalandığı nöqtələr də bura daxildir. Məhz buna görədir ki, tarix boyu Azərbaycanın başının üstündən hər zaman qara buludlar əskik olmayıb. Bu qaranlığı aydınlığa çevirən, onun dövlətçilik strukturunu yenidən möhkəm əsaslarla bərpa edən tarixi şəxsiyyət isə tarixin çox ağır, məşəqqətli sınaqlarından keçərək, nəinki Azərbaycanı yenidən quran, həm də özündən sonra siyasi iz buraxan dahi Heydər Əliyevdir.

Aristotel siyasət üçün insan ölçüsünün zəruriliyini, insan və dövlətin üzvi birliyi ideyasını müdafiə edirdi. Siyasi istedad, qabiliyyət, bilik, bacarıq, şəxsi nüfuz kimi amilləri nəzərə almaqla şəxsiyyətin tarixdə və siyasətdə rolunu liderlərin şəxsi xidmətləri ilə də əsaslandırırlar. Liderlərin siyasi mövqelərindən və əqidəsindən daha çox şəxsi keyfiyyətlərinə önəm verilir. Heydər Əliyev siyasətdə insanın necə önəm daşıdığını, dövlət aparatı ilə şəxsiyyətin birliyi ideyasını empirik sübuta yetirmiş şəxs idi. Heydər Əliyevin bütün həyatı siyasət üzərində qurulmuşdu. Heydər Əliyev fövqəl insandır, Heydər Əliyev şəxsiyyətə də özünəməxsus fərdilik gətirən dahidir.

Ümummilli Lider Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycan dövlətçiliyinin möhkəm sütunlarının, bugünkü və gələcək müstəqilliyinin siyasi-iqtisadi bazisini qurmağa müvəffəq oldu. Yüksək idarəçilik bacarığına malik Heydər Əliyev olduqca çətin bir dönəmdə həlli mümkün məsələləri reallığa çevirməyi bacardı. Azərbaycan dili, təhsili, xalqımızın daha dayanıqlı əsaslarla inkişafı üçün gənc nəslin hərtərəfli yetişməsi yolunda fundamental addımlar atdı. Lakin qarşıda duran əsas məsələ o idi ki, iqtisadiyyat dərin böhran vəziyyətində idi, həm sənayedə, həm də kənd təsərrüfatında geriləmə hökm sürürdü. Bu baxımdan, Heydər Əliyevin özü də deyirdi: "Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi".

Heydər Əliyevin qarşısında dayanan hədəf Azərbaycan iqtisadiyyatını dirçəltmək, ittifaq daxilində onu ən güclü iqtisadiyyatlardan biri etmək idi. Buna görə də Heydər Əliyev hakimiyyətə gələn kimi məşhur avqust plenumunu keçirərək ölkədəki iqtisadi vəziyyəti dərindən təhlil etdi. 1970-1980-ci illərdə qısa zaman kəsiyində sürətli iqtisadi artım yaşandı. Kənd təsərrüfatı məhsullarının ümumi həcmi 2,7 dəfə artdı. İqtisadiyyatın inkişafına qoyulan vəsaitin həcmi əvvəlki 50 il üçün müvafiq göstəricidən 1,4 dəfə artdı. 1969-1982-ci illər ərzində ölkədə 250 zavod, fabrik və sex tikildi, 2 milyondan artıq vətəndaşın mənzil təminatı problemi həllini tapdı. Pambıq istehsalı 333,6 min tondan 831,2 min tona çatdırıldı, 1982-ci ildə isə ölkədə pambıq istehsalı 1 milyon tona qədər yüksəldi. Bütün bu göstəricilər ona gətirib çıxartdı ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə, məhz onun sayəsində respublikamız ittifaq ölkələrindən fərqli olaraq SSRİ məkanında dotasiya olmadan yaşayırdı. İnkarolunmaz faktdır ki, iqtisadi inkişaf siyasi müstəqilliyin bazisidir. Məhz bu baxımdan deyə bilərik ki, ötən əsrin 70-80-ci illəri Azərbaycan iqtisadiyyatı inkişaf edərək siyasi müstəqilliyin önünü açmışdır. Paralel olaraq iqtisadiyyatın inkişafı sosial sahənin də inkişafına təkan verdi ki, bu da insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına gətirib çıxartdı. Məhz buna görədir ki, xalqımızın rifahı ilə yanaşı, onun milli oyanış, milli dirçəliş, özünüdərk prinsipləri məhz bu dahi insanın adı ilə üzvü surətdə bağlıdır. Heydər Əliyevin gənclik yaşlarından demək olar ki, gecəsi də, gündüzü də, ömrünün bütün mərhələləri də Azərbaycan xalqı ilə bağlı idi. O, SSRİ Nazirlər Sovetində çalışarkən belə, nəqliyyat, sosial sektor, səhiyyə və elm kimi ən problemli sahələrə rəhbərlik edirdi. Regionun və dünyanın ən böyük layihəsi olan Baykal-Amur magistralının tikintisinin həyata keçirilməsi məhz Heydər Əliyevin zəhmətinin nəticəsidir.

Heydər Əliyevin çoxşaxəli fəaliyyəti mədəniyyətimizdən də yan keçmədi. Ümummilli Lider 1970-ci illərdə Bakıda, digər şəhər və rayonlarda görkəmli mədəniyyət, ədəbiyyat və elm xadimlərinin fəaliyyətlərinə, keçdikləri ömür və sənət yoluna ehtiram əlaməti olaraq onların abidələrinin ucaldılması məsələsinə də xüsusi həssaslıqla yanaşırdı. Bu dahi şəxsiyyətin siyasətin soyuq, sərt üzünü bilməsi qədər, kövrək qəlbinin də nəticəsi idi ki, 1970-ci illərdə Nəriman Nərimanovun, Qəzənfər Musabəyovun, Məşədi Əzizbəyovun, Hüseyn Cavidin, Cəfər Cabbarlının, İmadəddin Nəsiminin, Səttar Bəhlulzadənin, Mehdi Hüseynzadənin və başqa görkəmli həmvətənlərimizin abidəsi ucaldıldı. Ulu Öndər Qarabağ bölgəsinin həssaslığını hər zaman diqqətdə saxlayırdı. Bu baxımdan, 1976-cı ildə qəbul etdiyi Şuşanın sosial-iqtisadi inkişafı haqqında qərarın ardınca bu tarixi Azərbaycan şəhərində Xan qızı Natəvanın abidəsi ucaldıldı. Bu silsilə addımlar paytaxtımızda və digər regionlarda olmaqla, tarix-diyarşünaslıq muzeylərinin açılışı ilə müşayiət olundu. Cəfər Cabbarlının, Səməd Vurğunun, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri açıldı. Heydər Əliyev repressiya qurbanlarının keçdiyi keşməkeşli həyat yoluna da hər zaman xüsusi diqqətlə yanaşırdı. Elə buna görə idi ki, amansız repressiyaya məruz qalmış, ömrü gənc yaşında solan, həssas qəlbli şair Mikayıl Müşfiqin və Azərbaycan ədəbiyyatına adı böyük hərflərlə həkk olunan Hüseyn Cavidin ev-muzeyləri yaradıldı.

1991-ci il yenidən müstəqillik qazanandan sonra bu dönəm Azərbaycanın ən taleyüklü dönəmi oldu. Azərbaycanın bugünkü reallığının əsası 1993-cü ildə qoyuldu, desək, zənnimcə ən düzgün yanaşma olar. 1993-cü ilə qədər olan dönəm isə olduqca çətin bir dövr idi. Bir tərəfdən, torpaqlarımız işğal olunur, davamlı olaraq qaçqın və məcburi köçkün axını ilə üzləşirdiksə, digər cinahda da xalqı bölmək istəyən, xalqın maraqları ilə deyil, siyasi hakimiyyət hərisliyi ilə yanıb-alışan xəyanətkarlarla üz-üzə idik. Siyasətdən bixəbər nadanlar Heydər Əliyevə şər-böhtan atmaqla onu xalqın gözündən salmağa çalışırdı. Lakin olduqca məşəqqətli bir dönəmdən keçən xalq hər şeyi yaxşı görür, sapı sapdan seçməyi bacarırdı. Məhz buna görə də dərin yaralarla sarsılmış xalq bütün fiqurları, acı reallıqları kənara qoyaraq, böyük bir təkidlə Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb etdi. Xalqımız əmin idi ki, məhz Heydər Əliyev ona nicat verəcək yeganə şəxsiyyət idi. Belə həssas məqamda Heydər Əliyev dövlət və cəmiyyət münasibətlərini düzgün tənzimləməyi bacardı. Məhz bu dahi şəxsiyyətin sayəsində Azərbaycanda institusional münasibətlərlə qrup normaları arasında nizam və ahəng yaradıldı. Heydər Əliyevin milli təəssübkeşliyinin bu dönəmdə şahidi olduqsa, həm də milli təəssübkeşliyin şəxsiyyət amilində oynadığı rolun praktiki sübut olunduğunu gördük. Buna görədir ki, Heydər Əliyev şəxsiyyəti nəzəriyyələri praktikada sübuta yetirən dahidir. Heydər Əliyev şüurlu və sistemli bir düşüncə səyi ilə Azərbaycanın dövlətçilik aparatını bərpa etməyi, onu gücləndirməyi bacardı. Azərbaycanı vətəndaş müharibəsinin caynaqlarından xilas edən, tam süqutun kəndarından döndərən Heydər Əliyev oldu. Heydər Əliyev ittifaqdan yenicə qopan kiçik bir ölkədə siyasət sahəsində fəal iştirak, demokratikləşmə kimi o dövr üçün yeni olan addımların ayaq açmasını təmin etdi. Hər bir yeni nəslə obyektiv siyasi aləmdə hərəkət etmək üçün, onunla dərindən tanış olmaq üçün imkan yaradıldı. Dövlətçilik quruluşunun əsas prinsiplərini bilən insanları ətrafında səfərbər etməyi bacaran bu dahi şəxsiyyət ölkəni siyasi ictimailəşməyə məruz qalıb sağlam əsaslarla inkişaf etdirmək üçün mütərəqqi addımlar atdı. Azərbaycanlı gənclərin dünya səviyyəli bilik və bacarıqlara yiyələnməsi Ulu Öndərimizin əsas qayələrindən biri idi. Buna görə də Heydər Əliyevin şəxsi müdaxiləsi və qayğısı nəticəsində necə ki 1970-ci illərdən başlayaraq, Bakıdakı ali hərbi məktəblərdə qəbul prosesində milliləşdirmə aparıldı və demək olar ki, o vaxta qədər hərbi elitaya yaxın buraxılmayan gənclərin sayı artırıldı, 1993-cü ildə də hakimiyyətə yenidən gələn Heydər Əliyev gənclərimizin təhsil almaları üçün ABŞ, Böyük Britaniya, Fransa, Türkiyə, Rusiya və başqa ölkələrin nüfuzlu ali təhsil ocaqlarına göndərilməsini təmin etdi.

Dövlətlərarası münasibətləri onların xarici siyasətini anlamadan möhkəmləndirmək mümkün deyil. Heydər Əliyev, ilk növbədə, qonşu dövlətlərlə olan münasibətləri prioritet müəyyənləşdirərək xarici siyasətdə qurucu addımlar atdı. Məhz bu amil qonşu dövlətlərlə siyasi səriştəsizliyin nəticəsi olaraq korlanan münasibətlərdə yeni səhifə açdı. Heydər Əliyev o şəxsiyyət oldu ki, hər bir xalqın beynəlxalq münasibətlərdə öz milli maraqlarının məqsəd, vəzifə və istəklərini təmin etmək hüququ və məsuliyyətini Azərbaycan xalqı üçün təcrübədə tətbiq etdi. Heydər Əliyev daxili siyasətində xalqın rifahını yaxşılaşdırmaqla məşğul olarkən, digər cinahda da Qarabağ məsələsini həll etmək istiqamətində əhəmiyyətli addımlar atırdı. Bu dahi şəxsiyyətin ən uca kürsülərdən Azərbaycan reallıqlarını səsləndirməsinin, erməni cəlladlarının üzünə həqiqəti söyləməsinin nəticəsidir ki, bu gün ərazi bütövlüyü və suverenliyi tam bərpa olmuş Azərbaycan regionun mərd xalqı titulunu əzmlə daşıyır. 1996-cı il 2-3 dekabr tarixində keçirilən ATƏT-in Lissabon sammitində Azərbaycan mühüm diplomatik nailiyyət əldə etdi. Qarabağ Zəfərini Azərbaycana bəxş edən, diplomatik masada çevik gedişlərə imza atan, praqmatik siyasəti ilə Azərbaycanı nəinki regionun güclü aktoru edən, diplomatiya sahəsində uğurlarının sədaları dünyadan gələn cənab Prezident İlham Əliyevin yürütdüyü diplomatiyanın əsası elə məhz Lissabon sammitindəki qələbə ilə qoyuldu.

Azərbaycan kiçik əraziyə, çoxmillətli dövlətə, işğal faktına malik olsa da, təhlükəsizlik və rifah baxımından müxtəlif çətinliklərlə üzləşsə də, güclü strukturlu dövlət yaratmaq, bu konsepsiyanı uğurla gələcək nəslə ötürmək missiyasının öhdəsindən gəldi. Məhz buna görə də xalqın özü Heydər Əliyevə haqlı olaraq Ümummilli Lider titulu verdi. Onun yaratdığı "azərbaycançılıq" məfkurəsi 44 günlük Vətən savaşında vuran biləyimizin "dəmir yumruğ"u oldu. Zəruri ehtiyaclar üçün unikal fürsətlər pəncərəsinin aralanması da məhz Ulu Öndərin uzaqgörənliyi sayəsində reallaşdırılan "Əsrin müqaviləsi" ilə mümkün oldu. Məhz belə mürəkkəb dönəmdə Azərbaycan iqtisadiyyatının bu cür ağıllı addıma ehtiyacı son dərəcə labüd idi. Məhz elə bu addımın nəticəsi idi ki, dünyanın bir çox bölgəsində güclənən ekstremist meyillərə qarşı duraraq, ciddi şəkildə dünyəvi xarici və daxili siyasət yürütmək mümkün oldu.

Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan siyasət bu gün cənab Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Məhz Müzəffər Ali Baş Komandanımızın illərlə yürütdüyü siyasətin, gecə-gündüz dəmədən sərf etdiyi əməyin nəticəsidir ki, bu gün müstəqil, təhlükəsiz, ərazi bütövlüyü və suverenliyi bərpa olmuş Azərbaycanda qürurla yaşayırıq. Ona görə qürurla ki, məhz dövlət başçımızın ən ali kürsülərdə Azərbaycanı yüksək intellektlə, erudisiya ilə təmsil etməyi döyüş meydanında da Ali Baş Komandan kimi hər bir əsgər və zabitimizə düzgün əmrlər ötürülməsi ilə müşayiət olundu və nəticə etibarilə alnımızdan məğlub damğası silindi. Bölgədə yaratdığımız reallıq artıq leqallaşıb. Buna mane olmağa çalışan, bu reallıqla barışmaq istəməyən, onu həzm edə bilməyən məkrli qüvvələrin mövcudluğu fonunda cənab Prezident İlham Əliyevin yürütdüyü siyasət bizim pənahımız, ümid yerimizdir. Bu görkəmli siyasətin təməl daşında Heydər Əliyev dayanır. Buna görə də Heydər Əliyev bütün Azərbaycanın və dünyaya səpələnmiş azərbaycanlıların milli sərvətidir.

*Heydər Əliyev irsi bizim milli kodeksimizdir. Çünki bu dahi şəxsiyyətin mayası vətən və xalq sevgisindən yoğrulmuşdu. Biz bu siyasətə daim sadiq qalmalı, atdığımız hər bir addımda Ümummilli Liderimizin ideallarını nəzərə almalıyıq. Yolumuz, missiyamız, amallarımız Heydər Əliyev xəttidir. Heydər Əliyev ideallarının işığı indiki və gələcək nəsilləri hələ çox aydınlığa çıxardacaq. Azərbaycan xalqı tarixini gözəl bilir. Xalqımızın bildiyi bir təkzibolunmaz fakt odur ki, Heydər Əliyev olmasaydı, onun yürütdüyü siyasət bu gün davam etdirilməsəydi, nə Qarabağ Zəfəri var idi, nə də bugünkü güclü Azərbaycan. Heydər Əliyev dahidir. Heydər Əliyev xalqdır, vətəndir, torpaqdır, Azərbaycandır. Belə reallıq isə sübut edilməli bir mövqe deyil.*

**Azər BADAMOV,**
***Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı***

Azərbaycan.- 2025.- 10 may (№95).- S.12.